# PAULUN QALATİYALILARA MƏKTUBU

## GİRİŞ

Paulun bu məktubu Asiyadakı Roma vilayətlərindən biri olan Qalatiya imanlılarına ünvanlanıb. Məktubun əsas mövzusu Yəhudi olmayan millətlərin İsa Məsihi öz Rəbbi və Xilaskarı olaraq qəbul etdikdə Tövratın qanunlarına əməl edib-etməmək məsələsidir. Paul qanuna əməl etmənin vacib olmadığını sübut edirdi. O yazır ki, Məsihlə birgə həyat yalnız imana əsaslanmalıdır. Lakin Qalatiyadakı cəmiyyətlərin bir neçəsi Paula qarşı çıxmış və Allahla düzgün münasibətlər qurmaq üçün Tövratın qanunlarına əməl etməyi tələb etmişdi.

Paulun Qalatiyalılara məktub yazmağının məqsədi bu yanlış təlimlə aldanmış adamları həqiqi iman yoluna və əsl məsihçi dəyərlərinə qaytarmaq idi. Paul həm də İsa Məsihin həqiqi həvarisi kimi öz hüquqlarını müdafiə edirdi. O yazır ki, Allah onu Yəhudi olmayan xalqlar üçün həvari olmağa çağırmışdı. Sonra Paul Allahla insanlar arasındakı düzgün münasibətlərin yalnız iman vasitəsilə qurulmasını vurğulayır. Sonuncu fəsillərdə Paul göstərir ki, məsihçi davranışı Məsihə iman etməkdən qaynaqlanan məhəbbətə əsaslanmalıdır.

**Kitabın məzmunu:**

1:1-10 Giriş
1:11–2:21 Paulun həvari kimi səlahiyyəti

3:1–4:31 Allahın lütf müjdəsi
5:1–6:10 Məsihdə azadlıq və məsuliyyət
6:11-18 Son öyüdlər və salamlar

1 Nə insanlardan, nə də insan vasitəsilə, yalnız
İsa Məsih və Onu ölülər arasından dirildən Ata
Allah vasitəsilə həvari təyin olunan mən Pauldan
2 və mənimlə olan bütün qardaşlardan Qalatiyada*
olan imanlı cəmiyyətlərə salam! 3 Atamız Allah-
dan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun!
4 Atamız Allahın iradəsinə görə Məsih günahlarımız
üçün Özünü fəda etdi ki, bizi indiki şər dövründən
qurtarsın. 5 Allaha əbədi izzət olsun! Amin.

*Tək Müjdə*

6 Heyrətlənirəm ki, Məsihin lütfü ilə sizi çağıran
Allahı belə tezliklə tərk edib başqa bir müjdəyə tərəf
dönürsünüz. 7 Əslində başqa müjdə yoxdur. Amma
sizi lərzəyə salıb Məsihin Müjdəsini təhrif etmək
istəyənlər vardır. 8 Amma istər biz, istərsə göydən
gələn bir mələk belə, bizim sizə yaydığımız Müjdəyə
zidd bir şeyi müjdə kimi yaysa, ona lənət olsun!
9 Əvvəlcə dediyimizi indi bir daha deyirəm: kim
sizə qəbul etdiyiniz Müjdəyə zidd bir şey yayırsa,
ona lənət olsun! 10 İndi mən insanları, yoxsa Allahı
məmnun etməyi axtarıram? Yoxsa insanlarımı razı
salmağa çalışıram? Əgər mən hələ də insanları razı
salmaq istəsəydim, Məsihin qulu olmazdım.

*Paul Məsihin həvarisi olur*

11 Qardaşlar, sizə bəyan edirəm ki, mənim yay-
dığım Müjdənin mənbəyi insan deyil. 12 Çünki

* **1:2** Qalatiya – indiki Türkiyə ərazisində olmuş bir vilayət.

mən onu insandan almadım və insan tərəfindən
də öyrədilmədim. Bunu mənə İsa Məsih vəhy va-
sitəsilə açdı.

13 *Yəhudi dininə bağlı olduğum günlərdə
mənim necə həyat sürdüyümü eşitdiniz. Mən
Allahın cəmiyyətini hədsiz təqib edir, onu
dağıdırdım. 14 Yəhudi dinində soydaşlarım arasında
yaşıdlarımın bir çoxundan daha irəlidə idim.
Ata-babalarımın adət-ənənələrinin qeyrətini
həddindən artıq çəkirdim. 15 *Amma hələ
anamın bətnindən məni seçib lütfü ilə çağıran
Allah 16 Öz Oğlu ilə bağlı Müjdəni başqa millətlər
arasında yayım deyə Onu mənə zahir etməyə
razı olanda dərhal insanlarla məsləhətləşmədim.
17 Yerusəlimə, məndən qabaq həvari olanların
yanına da getmədim, amma Ərəbistana getdim,
sonra yenə Dəməşqə qayıtdım.

18 *Üç il keçəndən sonra isə Kefa† ilə tanış
olmaq üçün Yerusəlimə getdim və on beş gün
onun yanında qaldım. 19 O biri həvarilərin heç
birini görmədim. Yalnız Rəbbin qardaşı Yaqubu
gördüm. 20 Allahın önündə sizə yazdıqlarımın yalan
olmadığını deyirəm. 21 Sonra Suriya və Kilikiya
diyarlarına getdim. 22 Yəhudeyanın Məsihdə olan
cəmiyyətləri isə məni şəxsən tanımırdılar. 23 Yalnız
bu sözü eşidirdilər: «Bir zaman bizi təqib edən
şəxs vaxtilə yox etməyə çalışdığı imanı müjdələyir».
24 Beləliklə, mənə görə Allahı izzətləndirirdilər.

---

* **1:13** Həv. 8:3; 22:2-5; 26:9-11 * **1:15** Həv. 9:3-6; 22:6-10; 26:13-18 * **1:18** Həv. 9:26-30 † **1:18** Kefa – yəni Peter. Bax: Yəhya 1:42.

# 2

### *Digər həvarilər Paulu qəbul edir*

1 On dörd il keçəndən sonra isə Barnaba ilə
birlikdə Titi də özümlə götürüb yenə Yerusəlimə
getdim. 2 Vəhy vasitəsilə getdim. Başqa millətlər
arasında vəz etdiyim Müjdəni onlara, etibarlı
olanlara şəxsən təqdim etdim ki, boş yerə cəhd
etməyim yaxud da cəhd etmiş olmayım. 3 Yanımda
olan Tit də Yunan olduğu halda sünnət olunmağa
məcbur edilmədi. 4 Bu iş aramıza gizlicə soxulan
yalançı qardaşlar üzündən oldu. Onlar Məsih İsada
malik olduğumuz azadlığı əl altından öyrənib bizi
kölə etmək üçün gizlicə aramıza girdilər. 5 Onlara
bir anlıq da olsa, baş əyib təslim olmadıq ki,
Müjdənin həqiqəti sizinlə qalsın.

6 *Etibarlı sayılan şəxslərə gəlincə, kim olursa
olsun mənə vacib deyil, Allah insanlara tərəfkeşlik
etməz. Lakin bu etibarlı sayılan şəxslər mənim
dediklərimə heç nə artırmadılar. 7 Əksinə,
sünnətlilərə* Müjdə yaymaq işi Peterə tapşırıldığı
kimi sünnətsizlər† arasında Müjdə yaymaq işinin
mənə tapşırıldığını gördülər. 8 Çünki sünnətlilərə
həvari olması üçün Peterdə fəal olan Allah başqa
millətlər üçün məndə də fəal oldu. 9 Cəmiyyətin
sütunları sayılan Yaqub, Kefa və Yəhya mənə
bağışlanan lütfü tanıdıqda mənə və Barnabaya
sağ əllərini uzatdılar ki, şərikliyimiz olsun. Ona
görə ki biz başqa millətlərin, onlarsa sünnətlilərin
yanına getsin. 10 Yalnız yoxsulları yad etməyimizi

* **2:6** Qanun. 10:17 * **2:7** Sünnətlilər – yəni Yəhudilər. † **2:7** Sünnətsizlər – yəni başqa millətlər.

istədilər, mən də məhz bunu icra etməyə səy göstərdim.

### *Paul Antakyada Peteri məzəmmətləyir*

11 Kefa Antakyaya gəldikdə isə şəxsən ona qarşı
çıxdım, ona görə ki tənqidə layiq idi. 12 Çünki
Yaqubun yanından bəzi adamlar gəlməmişdən
əvvəl Peter başqa millətlərdən olanlarla yemək
yeyirdi. Həmin adamlar gəldikdə isə sünnət
tərəfdarlarından qorxaraq başqa millətlərin
yanından çəkilib ayrı durdu. 13 Onunla birlikdə
o biri Yəhudilər də ikiüzlülük etdilər. Hətta
Barnaba belə, onların ikiüzlülüyünə qapıldı.
14 Amma mən Müjdənin həqiqətinə görə düzgün
riayət etmədiklərini görəndə hamının qarşısında
Kefaya dedim: «Əgər sən Yəhudi olduğun halda
Yəhudi kimi deyil, başqa millətlərdən biri kimi
yaşayırsansa, necə başqa millətləri Yəhudi kimi
yaşamağa məcbur edirsən?»

15 Biz anadangəlmə Yəhudilərik, başqa millətdən
olan «günahkarlar» deyilik. 16 *Lakin biz bilirik ki,
insan Qanuna əməl etməklə deyil, yalnız İsa Məsihə
iman etməklə saleh sayılır. Biz də Məsih İsaya
iman etdik ki, Qanuna əməl etməklə deyil, Məsihə
olan imanla saleh sayılaq. Çünki Qanuna əməl
etməklə heç bir insan saleh sayılmaz. 17 Əgər biz
Məsihdə saleh sayılmaq istərkən özümüz günahkar
çıxsaq, belə çıxır ki, Məsih günah xidmətçisidir? Əsla!
18 Əgər mən əvvəlcə yıxdığımı yenidən tikirəmsə,
özümü Qanunu pozan olaraq göstərirəm. 19 Çünki

* **2:16** Zəb. 143:2; Rom. 3:20,22

mən Qanun vasitəsilə Qanuna münasibətdə öldüm‡
ki, Allah üçün yaşayım. 20 Məsihlə birlikdə çarmıxa
çəkildim. Artıq mən yaşamıram, Məsih məndə
yaşayır. İndi cismən yaşadığım həyata gəlincə məni
sevib uğrumda Özünü fəda edən Allahın Oğluna
olan imanla yaşayıram. 21 Allahın lütfünü rədd
etmirəm. Çünki əgər salehlik Qanun vasitəsilə
qazanıla bilsəydi, deməli Məsih boş yerə öldü.

# 3

## *Qanun və iman*

1 Ey ağılsız Qalatiyalılar! Sizi kim tilsimlədi?* İsa
Məsihin çarmıxa çəkilməsi gözləriniz önündə açıqca
təsvir olundu! 2 Sizdən yalnız bunu öyrənmək
istəyirəm: Ruhu Qanuna əməl etməklə, yoxsa
eşitdiyinizə iman etməklə aldınız? 3 Siz bu qədərmi
ağılsızsınız? Ruhla başlayandan sonra indi cismani
səyləmi bitirirsiniz? 4 Boş yerəmi o qədər əzab
çəkdiniz? Həqiqətən, bunlar boş yerə idi? 5 Bəs sizi
Ruhla təmin edən və aranızda möcüzələr yaradan
Allah bunları Qanuna əməl etməyinizlə, yoxsa
eşitdiyinizə iman etməyinizlə icra edir?

6 *Məsələn, «İbrahim Allaha iman etdi və bu
ona salehlik sayıldı». 7 *İndi isə bunu bilin
ki, İbrahimin övladları imana əsaslananlar olur.
8 *Müqəddəs Yazı Allahın başqa millətləri imanları
ilə saleh sayacağını qabaqcadan görüb İbrahimə

‡ **2:19** Qanuna münasibətdə öldüm – yəni Qanunun mənim üzərimdəki hakimiyyətindən qurtuldum. * **3:1** Tilsimlədi? – bəzi əlyazmalarda tilsimlədi ki, həqiqətə itaət etməyəsiniz? (Qal. 5:7). * **3:6** Yar. 15:6; Rom. 4:3; Yaq. 2:23 * **3:7** Rom. 4:16 * **3:8** Yar. 12:3

«bütün millətlər sənin vasitənlə xeyir-dua alacaq»
deyərək Müjdəni qabaqcadan bildirdi. 9 Beləliklə,
imana əsaslananlar iman etmiş olan İbrahimlə bir-
likdə xeyir-dua alırlar.
10 *Qanuna əməl etməyə əsaslananların hamısı
lənət altındadır. Çünki yazılıb: «Qoy Qanun
kitabında yazılan hər şeyə riayət etməyən, onu
təsdiq etməyən hər kəsə lənət olsun!» 11 *Aydındır
ki, Allah qarşısında heç kim Qanun vasitəsilə saleh
sayılmır, çünki «saleh adam imanla yaşayacaq».
12 *Qanun isə imana əsaslanmamışdır. Əksinə,
«bu şeyləri yerinə yetirən adam bunların
sayəsində yaşayacaq». 13 *Məsih bizim uğrumuzda
lənətlənərək bizi Qanunun lənətindən satın aldı.
Çünki yazılıb: «ağacdan asılan hər kəsə lənət olsun!»
14 Belə ki İbrahimin aldığı xeyir-dua Məsih İsada
bütün başqa millətlərin üzərinə gəlsin və biz vəd
edilmiş Ruhu iman vasitəsilə alaq.

### *Qanun və Allahın vədi*

15 Qardaşlar, insan düşüncəsi əsasında deyirəm:
hətta insanın belə təsdiq etdiyi əhdi heç kəs
ləğv edə bilməz yaxud da ona heç bir şey əlavə
edə bilməz. 16 *Vədlər yalnız İbrahimə və onun
nəslinə verildi. Allah çox adam barədə danışırmış
kimi «və nəslindən olanlara» yox, tək bir adam
barədə danışaraq «və sənin nəslindən olana» deyir;
bu «nəslindən olan» Məsihdir. 17 *Bunu demək
istəyirəm: Allahın təsdiq etdiyi† Əhdi bundan dörd

* **3:10** Qanun. 27:26 * **3:11** Hab. 2:4 * **3:12** Lev. 18:5 * **3:13** Qanun. 21:22-23 * **3:16** Yar. 12:7; 13:14-15 * **3:17** Çıx. 12:40 † **3:17** Təsdiq etdiyi – bəzi əlyazmalarda Məsih barəsində təsdiq etdiyi.

yüz otuz il sonra gələn Qanun qüvvədən sala
bilməz ki, vədi ləğv etsin. 18 *Çünki əgər irs Qanuna
əsaslanırsa, artıq vədə əsaslanmır. Amma Allah
İbrahimə irsi vəd vasitəsilə lütfə görə verdi.
19 Bəs Qanun nə üçündür? Qanun Əhdi pozanları
təqsirləndirmək üçün əlavə olundu. Vədi alan və
İbrahimin nəslindən olan Şəxs gələnə qədər qüvvədə
qalmalı idi. Mələklər vasitəsilə, bir vasitəçi əli ilə
tərtib edildi. 20 Vasitəçi tək bir nəfərə aid deyildir,
Allah isə birdir.

### *Qanunun məqsədi*

21 Deməli, Qanun Allahın vədlərinə ziddirmi?
Əsla! Çünki əgər həyat verməyə qadir olan bir
Qanun verilsəydi, salehlik, həqiqətən, Qanunla
gələrdi. 22 Lakin Müqəddəs Yazı bütün kainatı
günahın əsiri elan etdi ki, İsa Məsihə olan imanla
vəd olunan şeylər iman edənlərə verilsin.
23 Amma bu iman gəlməzdən qabaq biz Qanun
altında saxlanmışdıq, gələcək iman zühur edənə
qədər əsir tutulmuşduq. 24 Yəni Qanun bizə Məsihə
qədər yol göstərən mürəbbimiz oldu ki, imanla
saleh sayılaq. 25 Amma iman gəldiyinə görə biz
artıq mürəbbinin əli altında deyilik.
26 Siz hamınız Məsih İsaya olan iman vasitəsilə
Allahın övladlarısınız. 27 Çünki vəftizdə Məsihlə
birləşən hamınız Məsihə bürünmüsünüz. 28 Artıq
Yəhudi ilə Yunan, qulla azad, kişi ilə qadın arasında
fərq yoxdur. Çünki hamınız Məsih İsada birsiniz.
29 *Əgər Məsihə aidsinizsə, deməli, İbrahimin
nəslindənsiniz və vədə görə varissiniz.

---

* **3:18** Rom. 4:14 * **3:29** Rom. 4:13

# 4

[1] Mən bunu deyirəm: varis hər şeyin sahibi
olsa da, uşaqlıq vaxtında köləden fərqlənmir. [2] O,
atasının təyin etdiyi vaxta qədər qəyyumların və
idarəçilərin nəzarəti altındadır. [3] Bunun kimi
biz də ruhani tərəfdən uşaq ikən dünyanın ibtidai
təlimlərinə kölə idik. [4] *Lakin vaxt tamam olanda
Allah qadından, Qanun altında doğulan Öz Oğlunu
göndərdi ki, [5] Qanun altında olanları satın alsın və
biz övladlığa götürülək. [6] Övladlar olduğunuz üçün
Allah Öz Oğlunun «Abba, Ata!» deyərək nida edən
Ruhunu ürəklərimizə göndərdi. [7] Buna görə də sən
artıq kölə deyil, övladsan. Əgər övladsansa, həmçinin
Allahın təyin etdiyi varissən.

### *Paulun Qalatiyalılar üçün qayğıları*

[8] Əvvəllər Allahı tanımadığınız vaxt təbiətcə al-
lah olmayanların kölələri idiniz. [9] İndi isə siz
Allahı tanıdınız, daha doğrusu, Allah tərəfindən
tanındınız. Necə olur ki, təkrarən zəif və dəyərsiz
olan ibtidai təlimlərə qayıdırsınız? Yenidən onların
köləsimi olmaq istəyirsiniz? [10] Xüsusi günlərə, ay-
lara, mövsümlərə və illərə riayət edirsiniz! [11] Sizin
üçün qorxuram, bəlkə sizə görə boş yerə zəhmət
çəkmişəm.
[12] Qardaşlar, sizə yalvarıram, mənim kimi olun,
çünki mən də sizin kimi oldum. Siz mənə heç
bir haqsızlıq etməmisiniz. [13] Bildiyiniz kimi,
mən Müjdəni ilk dəfə sizə cismən zəif olaraq
vəz etmişdim. [14] Cismani vəziyyətim sizin üçün
çətin bir sınaq oldusa da, nə mənə xor baxdınız,

* **4:4** Rom. 8:15-17

nə də məni rədd etdiniz. Hətta məni, Allahın
bir mələyini, Məsih İsanı qəbul edər kimi qəbul
etdiniz. 15 İndi o xoşbəxtliyiniz necə oldu? Sizin
haqqınızda şəhadət edirəm ki, əgər mümkün
olsaydı, gözlərinizi çıxardıb mənə verərdiniz.
16 Məgər sizə həqiqəti söylədiyim üçün sizin
düşməniniz oldum? 17 Onlar sizin qeyrətinizi
çəkirlər, amma yaxşı niyyətlə deyil. Siz onların
qeyrətini çəkəsiniz deyə sizi məndən ayırmaq
istəyirlər. 18 Yaxşı niyyətlə olarsa, qeyrətimi
çəkməniz yaxşıdır, amma bu, yalnız yanınızda
olduğum vaxt deyil, daimi olsun. 19 Övladlarım!
Məsihin surəti sizdə yaradılana qədər, sizlər üçün
yenə doğuş ağrısı çəkirəm. 20 İndi yanınızda olmaq
və səsimi dəyişdirmək istəyirdim. Bu halınıza çaşıb-
qalmışam.

### *Sara ilə Həcərin məsəli*

21 Ey Qanun altında yaşamaq istəyənlər,
mənə deyin görüm, Qanunun nə dediyini
eşitməmisinizmi? 22 *İbrahimin iki oğlu olduğu
yazılmışdır. Bir oğlu cariyədən, o biri oğlu isə
azad qadından* doğulmuşdu. 23 Cariyədən doğulan
bəşəri arzusundan, azad qadından doğulan isə
vədə görə doğulmuşdu. 24 Burada bir məcaz
var. Çünki bu qadınlar iki Əhdi təmsil edir. Biri
Sina dağındandır, köləlik üçün uşaq doğur. Bu,
Həcərdir. 25 Həcər Ərəbistandakı Sina dağını
təmsil edir və indiki Yerusəlimə bənzəyir. Çünki
indiki Yerusəlim övladları ilə birlikdə köləlikdədir.

---

* **4:22** Yar. 16:15; 21:2-3 * **4:22** Cariyədən ... azad qadından – yəni Həcərdən ... Saradan.

26 Səmavi Yerusəlim isə azaddır, o bizim anamızdır.
27 *Çünki yazılıb:
«Şənlən, ey sonsuz, qısır qadın!
Sevinclə mahnı oxu, qışqır,
Ey doğuş ağrısı çəkməyən qadın!
Çünki atılmış qadının övladları
Ərli qadının övladlarından çoxdur».
28 Sizsə, qardaşlar, İshaq kimi vədə görə doğulan
övladlarsınız. 29 *Amma o zaman bəşər arzusundan
doğulan şəxs Ruhun gücü ilə doğulan şəxsi necə
təqib etdisə, indi də belədir. 30 *Bəs Müqəddəs Yazı
nə deyir? «Cariyəni və onun oğlunu qov. Çünki
cariyənin oğlu azad qadının oğlu ilə birgə varis
olmayacaq». 31 Buna görə, qardaşlar, biz cariyənin
deyil, azad qadının övladlarıyıq.

# 5

## *Məsihin verdiyi azadlıq*

1 Məsih azad olmağımız üçün bizi azad etdi. Ona
görə də möhkəm durun* və yenidən köləlik boyunduruğuna tabe olmayın.
2 Budur, mən Paul sizə deyirəm: əgər siz
sünnət olunsanız, Məsih sizə heç bir fayda
verməz. 3 Sünnət olunan hər adama yenə şəhadət
edirəm ki, elə bir adam bütün Qanuna əməl
etməyə borcludur. 4 Ey Qanun vasitəsilə saleh
sayılmaq istəyənlər, siz Məsihdən ayrıldınız, Allahın
lütfündən uzaq düşdünüz. 5 Amma biz Ruh
vasitəsilə imanla saleh sayılacağımıza ümid bağlayıb

---

* **4:27** Yeş. 54:1 * **4:29** Yar. 21:9-10 * **4:30** Yar. 21:10,12
* **5:1** Məsih ... durun – bəzi əlyazmalarda Ona görə də Məsihin bizə verdiyi azadliqda möhkəm durun.

onu həvəslə gözləyirik. 6 Məsih İsada sünnətlilik də,
sünnətsizlik də əhəmiyyət kəsb etmir, əhəmiyyət
kəsb edən isə məhəbbətlə fəal olan imandır.
7 Yaxşı irəliləyirdiniz. Axı həqiqətə itaət etmə
yolunuzu kim kəsdi? 8 Belə inandırılmağınız sizi
Çağıranın istəyi deyil. 9 *Azacıq maya bütün xəmiri
acıdır. 10 Mən Rəbdə sizə etimad edirəm ki, başqa
cür düşünməyəsiniz. Sizi lərzəyə salansa, kim
olursa olsun, öz cəzasını çəkəcək. 11 Amma, qar-
daşlar, əgər mən hələ də sünnəti vəz edirəmsə, nə
üçün hələ də təqibə məruz qalıram? Elə olsaydı,
onlara büdrəmə daşı olan çarmıx ləğv olunardı.
12 Ah, kaş sizi çaşdıranlar özlərini axtalayaydılar!

### *Cismani təbiət və Müqəddəs Ruh*

13 Qardaşlar, siz azadlığa dəvət olunmusunuz.
Amma bu azadlığı cismani təbiət üçün fürsətə
çevirməyin, lakin bir-birinizə məhəbbətlə qulluq
edin. 14 *Bütün Qanun tək bir sözdə tamamlanır:
«Qonşunu özün kimi sev». 15 Əgər siz bir-birinizi
didib-yeyirsinizsə, ehtiyatlı olun ki, bir-birinizi
tələf etməyəsiniz.
16 Mən bunu deyirəm: Müqəddəs Ruha görə
həyat sürün, o zaman siz cismani təbiətin ehti-
rasını əsla icra etməzsiniz. 17 Çünki cismani
təbiət Ruha zidd və Ruh cismani təbiətə zidd
olanı arzulayır. Onlar bir-birinə qarşı durur ki,
siz istədiyinizi etməyəsiniz. 18 Amma Müqəddəs
Ruhun rəhbərliyi altında olsanız, siz Qanun altında
deyilsiniz.

---
* **5:9** 1Kor. 5:6 * **5:14** Lev. 19:18

19 Cismani təbiətin əməlləri isə bəllidir.
Bunlar cinsi əxlaqsızlıq,† murdarlıq, pozğunluq,
20 bütpərəstlik, sehrbazlıq, düşmənçilik, münaqişə,
qısqanclıq, hiddət, özünü göstərmə, nifaq, təfriqələr,
21 paxıllıq,‡ sərxoşluq, eyş-işrət və buna bənzər
şeylərdir. Sizə əvvəllər xəbərdarlıq etdiyim kimi
indi də xəbərdarlıq edirəm ki, bunları edənlər
Allahın Padşahlığını irs almayacaqlar.

22 Müqəddəs Ruhun səmərəsi isə budur:
məhəbbət, sevinc, sülh, səbir, xeyirxahlıq, yaxşılıq,
sədaqət, 23 həlimlik, nəfsə hakim olmaq. Bu kimi
şeylərə qarşı qanun yoxdur. 24 Məsih İsaya məxsus
olanlar isə öz həvəs və ehtirasları ilə birlikdə
cismani təbiəti çarmıxa çəkdilər. 25 Madam ki,
biz Ruha görə yaşayırıq, Ruha görə də rəftar
edək. 26 Şöhrətpərəst olmayaq, bir-birimizi
hirsləndirməyək, bir-birimizə paxıllıq etməyək.

# 6

## *Bir-birinizin yüklərini daşıyın*

1 Qardaşlar, əgər bir adam bir təqsir üstündə
tutulsa, siz ruhanilər onu həlimlik ruhu ilə bərpa
edin. Sən də sınağa düşməmək üçün özünə fikir ver.
2 Bir-birinizin yüklərini daşıyın və bu yolla Məsihin
qanununu icra edin. 3 Çünki əgər kimsə heç olduğu
halda özünü əhəmiyyətli sanırsa, öz-özünü aldadır.
4 Qoy hər kəs öz əməlini yoxlasın və onda başqasının
etdikləri ilə deyil, yalnız öz etdikləri ilə fəxr edəcək.
5 Çünki hər kəs öz üzərinə düşən yükü daşımalıdır.

† **5:19** Cinsi əxlaqsızlıq – bəzi əlyazmalarda zinakarlıq, cinsi əxlaqsızlıq. ‡ **5:21** Paxıllıq – bəzi əlyazmalarda paxıllıq, qatillik.

6 Kəlam haqqında təlim alan, təlim verənlə hər
cür neməti bölüşdürsün.
7 Aldanmayın: Allaha istehza edilməz. Çünki
insan nəyi əkərsə, onu da biçəcək. 8 Öz cis-
mani təbiəti üçün əkən, bu təbiətdən məhv biçəcək.
Ruh üçün əkənsə Ruhdan əbədi həyat biçəcək.
9 Yaxşılıq edərkən ruhdan düşməyək. Çünki əgər
həvəsdən düşməsək, vaxtında biçərik. 10 Buna görə
də nə qədər fürsətimiz varsa, hamı üçün, xüsusən
imanlılar ailəsi üçün yaxşı işlər görək.

### *Son öyüdlər və salamlar*

11 Baxın, sizə öz əlimlə necə böyük hərflərlə
yazdım! 12 Zahirən və cismən yaxşı təsir buraxmaq
istəyənlər yalnız Məsihin çarmıxı üzündən təqib
olunmamaq üçün sizi sünnət olunmağa məcbur
edirlər. 13 Axı sünnət olunanların özləri də Qanuna
riayət etmirlər. Lakin sizin sünnət olunmanızı
istəyirlər ki, sizin cisminizlə öyünsünlər. 14 Mənsə
Rəbbimiz İsa Məsihin çarmıxından başqa şeylə
əsla öyünmərəm. Bunun vasitəsilə dünya mənim
üçün çarmıxa çəkildi, mən də dünya üçün çarmıxa
çəkildim. 15 Çünki* əhəmiyyət kəsb edən sünnətlilik
yaxud sünnətsizlik deyil, yeni yaradılışdır. 16 Nə
qədər bu qaydaya riayət edənlər varsa, onların
üzərinə, Allahın İsraili üzərinə sülh və mərhəmət
gəlsin.
17 Bundan sonra qoy heç kim mənə əziyyət
verməsin. Çünki mən İsanın yara izlərini
bədənimdə daşıyıram.

---

* **6:15** Çünki – bəzi əlyazmalarda Çünki Məsih İsada.

18 Qardaşlar, Rəbbimiz İsa Məsihin lütfü ruhunuza yar olsun! Amin.

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http:// creativecommons.org/ licenses/ by-nc-nd/ 3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.

You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.

This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.

You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 21 Feb 2024 from source files dated 31 Aug 2023

5d1dd449-0589-5c75-ab0e-6b96786f2985